**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ƏLİ RİZVAN OĞLU FƏRHADOV**

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA İSLAMİ MAARİFÇİLİK VƏ İSLAHATÇILIQ HƏRƏKATI (MİR MƏHƏMMƏD KƏRİM MİRCƏFƏR ƏL-BAKUVİNİN "KƏŞFÜL-HƏQAYİQ" ƏSƏRİ ƏSASINDA)

**İxtisas: 5503.02 – "Vətən tarixi"**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**Bakı – 2016**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycan tarixinin elmi ekspozisiyası" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru **İ.S.Bağırova**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **A.H.Paşazadə**
Tarix üzrə fəlsəfə doktoru, dosent **R.S.Hüseynli**

**Aparıcı təşkilat:** AMEA Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsi

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01– "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "___"_____ 2016-cı il tarixli iclasında saat ____ -da keçiriləcəkdir.

**Ünvan**: 1143. Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

**Avtoreferat** " ____" ______ 2016-cı ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
Tarix üzrə fəlsəfə doktoru: **C.Ə.Bəhramov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Müasir Azərbaycan tarixşünaslığında tədqiqi vacib sayılan ən aktual problemlərdən biri milli, dini dəyərlərin tarixinin tədqiqi məsələsidir. Dövlət müstəqilliyinin bərpası, Azərbaycan tarixinin bütün dövrlərinə dair tədqiqatların, o cümlədən islam dini ilə bağlı məsələlərin tədqiqi üçün geniş imkanlar açdı. Buna görə də tədqiqat mövzusu XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda islami maarifçilik olduğu üçün əsas məqsəd Şimali Azərbaycanın islam maarifçilərinin, maarifçi din xadimlərinin timsalında onların islami dəyərlərə baxışını, yaşadıqları dövrün ictimai problemlərinə həll yolu olaraq təqdim etdikləri dəyərlərin necə mənimsənilməsi lazım olduğu xüsusundakı fikirlərini təqdim etməyə çalışacağıq. İslami maarifçilik ifadəsi bu mütərəqqi din xadimlərinin və dinə hörmətlə yanaşan dünyəvi mütəfəkkirlərin islam dininin müqəddəs kitabı Quranın ortaya qoyduğu həqiqi islama sonradan əlavə edilən xurafat və mövhumatı, dini dona bürünən adət-ənənələri necə tənqid etməsini, xalqı həqiqi islama necə dəvət etməsini göstərməkdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixin müxtəlif dövrlərində müxtəlif imperiyaların tərkibində olmuş və zəngin tarixi yol keçmiş, sosial-siyasi həyatında mühüm hadisələr baş vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövrünü çıxmaq şərtilə təxminən iki yüz illik Rusiya əsarəti Azərbaycan xalqının təkcə dünyəvi deyil, o cümlədən dini hüquqlarının da tapdalandığı bir dövr olmuşdur. XIX əsrin başlarından etibarən vahid bir xalqın ikiyə bölünməsi və bir-birindən xeyli fərqlənən ictimai-siyasi və mədəni inkişaf yoluna düşməsi böyük faciələr yaratdı. Çar Rusiyası işğal etdiyi bu torpaqların əhalisini istismar edərək, onları qul vəziyyətində saxlamaq və milli-mənəvi xüsusiyyətlərini yox etmək siyasətini icra etməyə başladı.

Bu kimi faciəvi hadisələrə qarşı müsəlman Azərbaycan xalqını islami baxımdan maarifləndirməyə çalışan Mir Məhəmməd Kərim əl-Bakuvi, Molla Ruhulla, Əbdüssəlam Axundzadə, Əbu Turab Axundzadə və s. mütərəqqi din xadimləri olmuşdur ki, onların irsinin araşdırılması həm dövrün tarixini dərindən dərk etməmiz, həm də yaşadığımız zamanda dini, mənəvi dəyərlərin qorunması, təbliği, gələcək nəsillərə çatdırılması baxımdan da çox faydalıdır. Xüsusilə "Kəşfül-həqayiq an nukətil-ayati vəd-

dəqaiq”[1] (“Ayələrin məna və incəlikləriylə həqiqətlərin kəşfi, açıqlanması”- Ə.F) adlı üçcildlik təfsir əsəri ilə azərbaycanca ilk Quran təfsirini yazan Bakı qazısı Mir Məhəmməd Kərim əl-Bakuvinin bu əsərinin xalqa tanıtdırılması, tədqiq və təbliği Azərbaycan xalqının islamı öz milli qaynaqları vasitəsilə öyrənməsinə, xarici dini təriqətlərin təsirinə düşməməsinə səbəb olacaqdır. Bu məqsədlə dissertasiyada əl-Bakuviyə və onun “Kəşfül-həqayiq” əsərinə geniş yer ayrılmışdır.

Sovet dövründə Azərbaycan tarixşünaslığının bir çox məsələləri, o cümlədən dövrün mütərəqqi din xadimlərinin, islam maarifçilərinin fəaliyyəti yetərli qədər və obyektiv araşdırılmamış, təhriflərə yol verilmişdir. 1991-ci ilin sonundan etibarən Azərbaycanın rus işğalından azad olaraq müstəqil bir dövlətə çevrilməsi iki yüz illik bu əsarətin yaratdığı mənəvi çöküşün yox edilərək, xalqın öz milli-mənəvi, tarixi keçmişini öyrənə bilməsi üçün yeni imkanlar yaratdı. Ulu öndər Heydər Əliyevin dediyi kimi “Azərbaycan xalqı uzun müddət öz dinindən məhrum olmuşdur. Və bu da bir imtahandır ki, görsünlər insan öz dinindən məhrum olandan sonra nə bəlalara düşür və öz dininə qayıdandan sonra nə qədər xoşbəxtlik əldə edir”.[2] Bu səbəbdən bu gün Azərbaycan tarixinin tədqiqində bu mövzunun yeri xüsusi əhəmiyyət kəsb edir və Azərbaycan xalqının öz mənəvi irsi ilə yaxından tanış olması, onları öyrənib təbliğ etməsi çox vacibdir. Bunun üçün isə biz öz dövlət müstəqilliyimizə borcluyuq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi “bundan böyük dəyər ola bilməz”.[3]

Dissertasiya işində bu məsələyə xüsusi yer ayrılmış, “islami maarifçilik və islahatçılıq hərəkatı” deyimi ilə islami maarifçilik sahəsində xüsusi əsərlər yazan, fəaliyyətlərində bunu özlərinə şüar seçən şeyxülislamların, mütərəqqi din xadimlərinin, islam maarifçilərinin həqiqi islamla, Qurandan qaynaqlanan islamla ona sonradan əlavə edilən xurafat və mövhumatları xalqa göstərməsi, həqiqi islamı, Quran ayələrini olduğu

---

[1] Əl-Bakuvi Mir Məhəmməd Kərim Mircəfər. Kəşfül-həqayiq an nukətil-ayati vəd-dəqaiq. Üç cilddə. I cild. Tiflis: “Kaspi” qəzetinin Buxariyyə mətbəəsi, 1904, 745 s.; Göst. əsər. II cild, 1904, 791 s.; Göst. əsər. III cild, 1906, 959 s. – bundan sonra: “Kəşfül-həqayiq”.

[2] Əl-Fəlah Adil Abdulla. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı, Qismət, 2007, 108 s., s.30.

[3] http://az.trend.az/news/karabakh/2139423.html / Prezident İlham Əliyev: Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik.

kimi təbliğ edib, xurafat və mövhumatlardan çəkindirməsi, bu yolda kitablar, məqalələr yazması, moizələr, xütbələr etməsi, müslümanları islama necə əməl etmək haqqındakı görüşləri göstərilmişdir. Məhz bu islam maarifçilərinin fəaliyyəti nəticəsində Şimali Azərbaycanda dini və milli şüur formalaşmış, XX əsrin əvvəllərində Rusiya işğalı əleyhinə mübarizədə, müstəqilliyə gedən yolda mühüm addımlar atılmışdır. Dissertasiyanın əsas mövzusu bu günkü dövr baxımından da xüsusilə aktualdır. Bəzi Yaxın Şərq ölkələrində müşahidə etdiyimiz dini radikalizm, dinlərarası və məzhəblərarası qanlı toqquşmalar kimi problemlərlə ideoloji mübarizə aparmaqdan ötrü əl-Bakuvi kimi mütərəqqi din xadimlərinin, islam maarifçilərinin irsi də dərindən tədqiq və təbliğ edilməlidir.

**Tədqiqatın xronoloji çərçivəsi:** Dissertasiyanın əsas mövzusu əl-Bakuvi və "Kəşfül-həqayiq" əsəri olsa da, mütəfəkkirin yaşadığı mühiti anlamaq üçün XIX əsrin əvvəllərindən etibarən dövrə nəzər salınmış, xüsusilə XIX əsrin sonundan çar Rusiyasının süqutuna - 1917-ci il Fevral inqilabına qədərki zaman dövrü tədqiq edilmiş, əl-Bakuvinin XX əsrin 30-cu illərini əhatə edən həyatının son dövrü qısaca da olsa işıqlandırılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi:** Tədqiq edilən dövrdə Çar Rusiyasının müsəlman ruhaniliyi haqqındakı siyasətini və və dövrün müsəlman din xadimlərinin dini fəaliyyətini anlamamız baxımından D.Arapovun,[4] L.Klimoviçin,[5] A.Qaniçin,[6] T.Svyatoxovskinin[7] əsərləri və

---

[4] Арапов Д.Ю. Ислам в Российской империи. Законодательные акты, описания, статистика. Москва: Академкнига, 2001, 261 с.; Yenə onun. Императорская Россия и мусульманский мир (конец XVIII – начало XX вв.). Москва: Наталис, 2006, 480 с.; Yenə onun. «...Опасные для единства нашего государства проповедники...». П.А.Столыпин о политике Турции в отношении России и панисламизме. 1910 г. // Отечественные архивы, 2004, № 3, с. 93-98.

[5] Климович Л. Ислам в царской России. Москва: Государственное антирелигиозное издательство, 1936, 409 с.; Климович Л.И. Книга о Коране, его происхождении и мифологии. Москва: Издательство политической литературы, 1986, 145 с.

[6] Ганич А. "Поучение" Закавказского муфтия и председателя Закавказского мусульманского духовного правления суннитского учения (1892 г.) / Актуальные проблемы истории и этнографии народов Кавказа. Сборник статей к 60-летию В.Х.Кажарова. Нальчик: Институт гуманитарных исследований КБНЦ РАН, 2009, с. 328-346.

istifadə edilən digər əsərlər[8] qiymətli məlumatları ehtiva edir. Sovet dövründə mövzumuz olan islam maarifçiliyinin və mütəfəkkirlərinin tədqiqi baxımından məşhur filosof H.Hüseynovun,[9] S.Hüseynovun,[10] Q.Mustafayevin,[11] Ə.M.Əhmədovun,[12] Ə.Həsənovun,[13] Z.B.Göyüşovun,[14]

---

[7] Swietochowski T. Russian Azerbaijan, 1905-1920: The shaping of national identity in a Muslim community. New York: Cambridge University Press, 1985, 256 p.

[8] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Феодальные отношения и колониальный режим 1827-1843 гг. / Сост. и подг. к печати.Н.Г.Богданова, Я.М.Притыкин. Т.I. Москва.- Ленинград: Изд-во Академии Наук СССР, 1936, 463 с.; Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Феодальные отношения и колониальный режим 1843-1868 гг. / Сост. и подг. к печати. Н.Г.Богданова, Я.М.Притыкин. Т.II.-Москва Ленинград: Изд-во Академии Наук СССР, 1936, 480 с.; Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Üç cilddə. I cild / Tərtibçi-müəlliflər: T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. Bakı: Elm, 2010, 713 s.; Göst. əsər. II cild. Bakı: Elm, 2010, 616 s.; Göst. əsər. III cild. Bakı: Elm, 2010, 348 s.; Климович Л. Ислам в царской России. Москва: Государственное антирелигиозное издательство, 1936, 409 с.; Климович Л.И. Книга о Коране, его происхождении и мифологии. Москва: Издательство политической литературы, 1986, 145 с.; Ганич А. "Поучение" Закавказского муфтия и председателя Закавказского мусульманского духовного правления суннитского учения (1892 г.) / Актуальные проблемы истории и этнографии народов Кавказа. Сборник статей к 60-летию В.Х.Кажарова. Нальчик: Институт гуманитарных исследований КБНЦ РАН, 2009, с. 328-346.

[9] Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Zəkioğlu, 2006, 544 s.

[10] Hüseynov S. XIX əsrin qabaqcıl Azərbaycan yazıçıları dini mövhumat və fanatizm əleyhinə mübarizədə. Bakı: ASSR EA Nəşriyyatı,1955, 162 s.; Yenə onun. Seyid Əzim Şirvani. Bakı: Yazıçı, 1987, 124 s.; Yenə onun. Seyid Əzim Şirvaninin yaradıcılıq yolundan. Bakı: Elm, 1977, 217 s.

[11] Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s.

[12] Ахмедов Э.М. Философия азербайджанского просвещения. Баку: Азернешр, 1982, 291 с.

[13] Həsənov Ə. Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi (XIX əsrin II yarısı XX əsrin əvvəlləri). Bakı: Yazıçı, 1983, 224 s.

[14] Göyüşov Z.B. Azərbaycan maarifçilərinin etik görüşləri (XIX əsrin II yarısı). Bakı: ASSR EA Nəşriyyatı, 1960, 212 s.; Göyüşov Z.B. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri (XIX əsrin sonu – XX əsrin əvvəlləri). Bakı: Azərnəşr, 1989, 206 s.

H.M.Qafqazlının,[15] F.Qasımzadənin[16] əsərlərini nümunə göstərə bilərik. V.Xuluflunun yaradıcılığında[17] dövrün panislamizm cərəyanı subyektiv, marksizm nöqteyi-nəzərindən tədqiq edilmişdir. Heydər Hüseynovun yaradıcılığında[18] klassik Azərbaycan mütəfəkkirlərinin dini baxışları təhrif edilmiş, çox vaxt onların materialist istiqamətli olduğu vurğulanmışdır. Nazim Axundovun yaradıcılığında[19] dövrün islami qəzet və jurnallarının milli intibahda oynadığı rol mənfi şəkildə təsvir edilmişdir. Çox təəssüf ki, sovet dövründə mövzu ilə əlaqəli yazılan kitablarda islama və din xadimlərinə birtərəfli münasibət sərgilənmiş, məsələlərə obyektiv deyil, subyektiv yanaşılmışdır. Məsələn, Ə.Həsənovun yaradıcılığında[20] Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə kimi "panislamistlərin feodal-ruhani dairələrinin əhvali-ruhiyyəsini əks etdirdiyi" qeyd olunur, lakin onların islam adına ortaya qoyduğu islahatçı fikirlər təqdim edilmir. Eyni əsərdə Ü.Hacıbəylinin, Y.V.Çəmənzəminlinin sanki islama tamamilə qarşı olduqları fikri təlqin edilir, lakin əslində onlar islama yox, islam adı altında ortaya qoyulan mövhumata qarşı çıxmış, müsəlmanların qurtuluşunu həqiqi mənada dini maarifçilikdə görmüş, həqiqi insanlığın islama tabe olmaqla mümkün olduğunu ifadə etmişdilər. Qədim Mustafayevin əsəri isə öz subyektivliyi və birtərəfliyi ilə nəzərə çarpır. Məsələn, kitabda "Difai" partiyasının terrorist təşkilat olduğu göstərilmiş, lakin bu təşkilatın müsəlmanları müdafiə üçün yaradıldığı reallığı qeyd edilməmişdir. Müstəqillik illərindən etibarən mövzunun obyektiv tədqiqi vüsət almağa başlamış, mövzu ilə əlaqədar R.Hüseynlinin, Z.Məmmədovun, A.Əhədovun, A.Yunusovun, V.Quliyevanın, H.Orucovun qiymətli əsərləri ortaya çıxmışdır.[21] R.Hüseynlinin əsəri bu mövzu üzrə

---

[15] Qafqazlı H.M. Kiçik bir xatirə // Azərbaycan qadını, 1963, №5, s.3.

[16] Qasımzadə F.S. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1974, 488 s.; Yenə onun. Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı. Bakı: Azərnəşr, 1962, 380 s.

[17] Xuluflu V. Panislamizm, imperializm və ruhaniyyət. Bakı: Azərnəşr, 1929, 40 s.

[18] Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Zəkioğlu, 2006, 544 s.

[19] Axundov N. Azərbaycanda dövri mətbuat (1832-1920). Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, 1965, 176 s.

[20] Həsənov Ə. Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi (XIX əsrin II yarısı XX əsrin əvvəlləri). Bakı: Yazıçı, 1983, 224 s.

[21] Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından sovet işğalınadək olan dövrdə). Bakı: "Kür" nəşriyyatı, 2002, 266 s.; Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Şərq-Qərb, 2006, 328 s.; Əhədov A. Azərbaycanda din və dini

əsas əsərlərdən biridir. A.Yunusovun yaradıcılığında çarizmə qarşı mübarizədə müsəlman ruhanilərinin rolu geniş əks olunmuşdur. A.Əhədovun əsərlərində islam modernizmi, ictimai məsələlərə müasir islami baxış məsələləri tədqiq edilmişdir. V.Quliyevanın əsərlərində müsəlman ruhanilərinin iqtisadi vəziyyəti, sosial-siyasi, mədəni həyatda rolu, vəqf sistemi haqqında dəyərli məlumatlar vardır. İ.Bağırovanın yaradıcılığı[22] o dövrün siyasi mənzərəsini və xüsusilə Ə.Ağaoğlu tərəfindən yaradılan "Difai" partiyasının Azərbaycanın ictimai-siyasi həyatında oynadığı rolu, Rusiyanın assimilyasiya siyasətinə qarşı müsəlmanların dini islahatçılıq hərəkatını geniş əks etdirmək baxımından dəyərlidir. D.Seyidzadənin yaradıcılığında[23] dövrün ictimai-siyasi səhnəsi dəqiq təsvir edilmiş, Dövlət Dumasının azərbaycanlı deputatlarının fəaliyyəti, onların çarizmin müsəlmanları assimilyasiya siyasətinə qarşı mübarizəsi geniş işıqlandırılmışdır. S.Süleymanovanın yaradıcılığında[24] dövrün islamçılıq cərəyanı və nümayəndələri haqqında geniş məlumat vardır. Q.Cavadlının "İslam və kütləvi informasiya vasitələri" monoqrafiyasında[25] çarizm dövründə milli mətbuatın dinə münasibəti işıqlandırılmışdır. Şeyxülislam A.Paşazadənin "Qafqazda islam: tarix və müasirlik"[26] kitabı Azərbaycanda islam tarixinin öyrənilməsi baxımından qiymətli tədqiqatdır.

---

təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.; Yenə onun. Azərbaycanda islamın modernləşdirilməsi. Bakı: Azərnəşr, 1995, 156 s.; Yunusov A. Azərbaycanda islam. Bakı: "Zaman", 2004, 364 s.; Кулиева В.А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в Х IХ - начале ХХ в. Баку: Элм, 1999, 64 с.; Yenə onun. Роль и позиция мусульманского духовенства в социально – политической и культурной жизни Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно азербайджанских политических отношений. Баку: «Нурлан», 2003, 371 с.

[22] Багирова И.С. Политические партии и организации Азербайджана в начале ХХ века (1900-1917). Баку: Элм, 1997, 336 с.; История общественно-культурного реформаторства на Кавказе и в Центральной Азии (XIX – начало ХХ века) / Ответственные редакторы: д.и.н. проф. Д.Алимова, д.и.н. проф. И.Багирова. Самарканд: МИЦАИ, 2012, 335 с.

[23] Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: Oka ofset, 2004, 348 s.

[24] Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). Bakı: Az. Dövlət Kitab Palatası, 1999, 422 s.

[25] Cavadlı Q.A. İslam və kütləvi informasiya vasitələri. Bakı: CBS, 2009, 176 s.

[26] Paşazadə A. Qafqazda islam: tarix və müasirlik. Bakı: Azərnəşr, 1991, 224 s.

H.Məmmədlinin, H.Orucovun, Y.Abbasovun, F.Vəlioğlunun kitablarında yenə həmin dövrün din xadimləri haqqında qiymətli məlumatlar vardır.[27] A.Göyüşovun yaradıcılığında[28] dövrün panislamist ziyalılarının və islami təmayüllü təşkilatların fəaliyyəti işıqlandırılmışdır. A.Balayevin əsərlərində[29] dövrün Azərbaycan ziyalılarının milli, dini azadlıq mübarizəsi haqqında qiymətli məlumatlar vardır. Y.Mahmudovun və K.Şükürovun,[30] E.Lətifovanın[31] və Ş.Hacıəlinin əsərlərində[32] çar Rusiyasının Azərbaycanda apardığı missionerlik siyasəti geniş təqdim və tədqiq olunmuşdur. A.Qasımovanın əsərlərində[33] isə "İşıq" qəzeti və islami qadın mətbuatı tədqiq edilmişdir.

Y.Talıbov, F.Sadıqov və S.Quliyevin,[34] E.Səmədovun,[35] H.Əhmədovun[36] əsərlərində Şimali Azərbaycanın o dövrdəki tədris və

---

[27] Orucov H. Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı: "İdrak İB", 2012, 388 s.; Abbasov Y. İslam alimləri. Dünyada tanınmış azərbaycanlı müctəhidlər, ayətullahlar: XVI-XX əsrlər. Bakı: Nurlar, 2007, 440 s.; Vəlioğlu F. Azərbaycanın görkəmli islam alimləri. Bakı: Əhli-beyt yolu, 2009, 211 s.

[28] Göyüşov A. Azərbaycanda ittihadçılıq. Bakı: "İrşad" mərkəzi, 1997, 133 s.

[29] Балаев А. Азербайджанская нация: основные этапы становления на рубеже XIX-XX вв. Москва: Тип. Тиражи.Ru., 2012, 409 с.; Yenə onun. Азербайджанские тюрки. Процессы формирования нации и национальной идентичности на рубеже XIX-XX вв. Баку: Qanun, 2010, 328 с.

[30] Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: "Təhsil", 2009, 144 s.

[31] Лятифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство / Издатель, главный редактор и автор вступительной статьи: Я.Махмудлу. Баку, 1999. 152 с.; http://azr.baybak.com/il_2007_say_781.azr / Y.Mahmudov, E.Lətifova, A.Məmmədova. Azərbaycanda xristianlaşdırma siyasəti (birinci hissə); http://azerimuslims.com/print.php?id=3611 / Y.Mahmudov, E.Lətifova, A.Məmmədova. Azərbaycanda xristianlaşdırma siyasəti (ikinci hissə).

[32] Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: ingiloylar (I kitab: ən qədim zamanlardan XIII əsrin ortalarınadək) / Giriş məqaləsinin müəllifi. Y.Mahmudov. Elmi redaktor: A.N.Mustafayev. Bakı: Təhsil, 2007, 280 s.

[33] Qasımova A. XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın problemləri. Bakı: Adiloğlu, 2010, 168 s.; Yenə onun. Azərbaycanda ilk qadın mətbuatı: "İşıq" qəzeti. Bakı: Adiloğlu, 2010, 56 s.

[34] Talıbov Y., Sadıqov F., Quliyev S. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000, 516 s.

[35] Səmədov E. Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması. Bakı: 2009, 169 s.

[36] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006, 580 s.

təhsil mənzərəsi, dini məktəblərin fəaliyyəti işıqlandırılmışdır. F.Cabbarovun "Hacı Zeynal Abdin Tağıyevin qız məktəbinin tarixindən"[37] kitabında dövrün ilk dünyəvi Azərbaycan qız məktəbinin açılışı və bu yolda H.Z.Tağıyevin və müsəlman din xadimlərinin, ziyalıların gərgin əməyi arxiv materialları və qaynaqlar əsasında təqdim edilmişdir. Nərmin Tahirzadənin "Из истории азербайджанской интеллигенции"[38] əsərində dövrün maarifçi ziyalılarının elmi-pedaqoji fəaliyyəti hərtərəfli tədqiq edilmişdir. N.Vəlixanlı, N.Tahirzadə, F.Cabbarov və M.Məmmədovun həmmüəllif olduğu "Hacı Zeynal Abdin Tağıyev"[39] kitab-albomunda bu görkəmli xeyriyyəçinin həyat və fəaliyyəti, islami baxımdan xeyriyyəçilikdə oynadığı rol işıqlandırılmışdır. Azərbaycanın XIX əsr – XX əsrin əvvəllərindəki tarixini öyrənməmiz baxımından iki cildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" da çox əhəmiyyətli bir ensiklopedik kitabdır.

XIX əsrin I yarısına aid müsəlman ruhaniliyi haqqında R.Hüseynlinin,[40] XIX –XX əsrin əvvəllərində müsəlman ruhaniliyinin sosial-siyasi və mədəni həyatda rolu mövzusunda V.Quliyevanın[41] dissertasiyaları müdafiə edilmişdir. İ.Bağırovanın dissertasiyasında[42] dövrün siyasi mənzərəsi və Ə.Ağaoğlu başda olmaqla "Difai" partiyasının cəmiyyətdəki rolu tədqiq edilmişdir. Q.Cavadlının dissertasiyasında[43] dövrün mətbuat vasitələrində dini dəyərlərə baxış məsələsi tədqiq

---

37 Cabbarov F. Hacı Zeynal Abdin Tağıyevin qız məktəbinin tarixindən. Bakı: "Ziya", 2011, 392 s.

38 Таирзаде Н.А. Из истории азербайджанской интеллигенции. Баку: Адильоглы, 2009, 396 с.

39 Vəlixanlı N., Tahirzadə N., Cabbarov F., Məmmədov M. Hacı Zeynalabdin Tağıyev. Bakı: 2010, 241 s.

40 Hüseynli R. Azərbaycan ruhaniliyi XVIII yüzilin sonu – XIX yüzilin ortalarında: Tarix elm. nam. ...dis. avtoref. Bakı, 1996, 23 s.

41 Кулиева В.А. Роль и позиция мусульманского духовенства в социально – политической и культурной жизни Северного Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно азербайджанских политических отношений: Дис. канд. ист. наук. Баку, 2004, 325 с.

42 Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917): Дис. …док. ист. наук. Баку, 2000, 337 с.

43 Cavadlı Q.A. İslami dəyərlərin kütləvi informasiya vasitələrində işıqlandırılması: Filol. üzrə fəls. dr. ...dis. avtoref. Bakı, 2011, 25 s.

edilmişdir. A.Qasımovanın dissertasiyası[44] da dövrün islam maarifçiliyində Azərbaycan qadınlarının, xüsusən "İşıq" qəzetinin rolunu öyrənmək baxımından çox əhəmiyyətlidir. N.Quliyevanın dissertasiyasında isə XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda islam təhsili mövzusu geniş işıqlandırılmışdır.[45]

Demək olar ki, dövrün din xadimləri, islam maarifçiləri adlarını qeyd etdiyimiz bir çox əsərdə, xüsusilə A.Yunusovun, H.Məmmədlinin, H.Orucovun, A.Əhədovun və digərlərinin əsərlərində araşdırılsa da, əsas etibarilə ruhanilərin çarizm nümayəndələri ilə münasibətləri tədqiq edilmiş, din xadimlərinin yaradıcılıqları, mövcud problemlərə gətirdikləri islami həll yolları zəif işıqlandırılmışdır. Təəssüf ki, əl-Bakuvi, Molla Ruhulla, Əbdüssəlam Axundzadə, Əbu Turab Axundzadə, Axund Yusif Talıbzadə kimi bir çox din xadiminin əsərlərinə ya heç yer verilməmiş, ya da səthi olaraq bəhs edilərək onlardan geniş nümunələr, mövcud problemlərin həlli istiqamətində ortaya qoyduqları ideyalar göstərilməmişdir.

Dissertasiyanın təməl mövzusu olan əl-Bakuvinin "Kəşfül-həqayiq" əsəri Azərbaycan tarixşünaslığı baxımından ilk dəfə bu dissertasiyada geniş tədqiq edilmiş, müəllifin islami maarifçilik və islahatçılıq görüşləri əsərindən nümunələr göstərilməklə ortaya qoyulmuşdur. Əsərin hər üç cildinin faksimilesi 1938-ci ildə Təbrizdə nəşr edilmiş, Əbdül Məcid Novbari tərəfindən fars dilinə də tərcümə edilərək çap olunmuşdur.[46] Bu əsər haqqında Türkiyədə A.Bedir tərəfindən "Baküvi tefsirinin tahlil ve tahrici"[47] və S.Şehavetov tərəfindən "Ulumu'l-Kur'an açısından Bakuvi tefsirininn özellikleri"[48] adlı dissertasiyalar müdafiə edilmişdir. Əl-Bakuvinin bu əsəri A.Bedir tərəfindən A.Dolunay imzası ilə və "Gerçeğin doğuşu: Alevi Kuran tefsiri"[49] adı altında türkcəyə tərcümə edilmişdir.

---

[44] Qasımova A.N. XX əsrin əvvəllərində Azərbaycan mətbuatında qadın problemləri: Tarix elm. nam. ...dis. avtoref. Bakı, 2004, 27 s.

[45] Гулиева Н.Я. Исламское образование в Северном Азербайджане в XX веке. Автореф. дис. ... док. филос. по истории. Баку, 2015, 32 с.

[46] İsmayılzadə R. Qurani-kərim və onun tərcümələri / H.İsaxanlı. Elm və sənət məclisi: 1-10. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2008, 303 s., s.73.

[47] Bedir A. Bakövi tefsirinin tahlil ve tahrici: neşrolunmamış doktora tezi. Şanlıurfa: Harran Üniversitesi Sosyal Bilimler Enstitüsü, 1997, 1200 s.

[48] Şehavetov S. Ulumu'l-Kur'an açısından Bakuvi tefsirininn özellikleri: neşrolunmamış yüksek lisans tezi. İstanbul: Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2010, 165 s.

[49] El-Baküvi M.M.K. Gerçeğin doğuşu: Alevi Kuran tefsiri. 2 cilddə. I-II c., terc. A.Dolunay. İstanbul: Merkür, 2000, 610 s.

A.Bedirin bu tərcüməsi əl-Bakuvinin əsərinin türk oxuculara təqdimi baxımından faydalı olsa da, tərcümə zamanı bəzən müəllifin fikri əvəzinə öz şərhini təqdim etdiyi üçün orijinallığı pozmuşdur.

Əl-Bakuvinin bu əsəri haqqında İ.Çalışkanın da "Türkçe'de ilk şiî tefsir"[50] adlı bir məqaləsi vardır. Bu məqalədə əl-Bakuvi və əsərləri haqqında məlumat verilmiş, A.Dolunayın əl-Bakuvidən etdiyi tərcümə obyektiv olmadığı üçün tənqid edilmişdir. Şimali Azərbaycanda əl-Bakuvi və islam maarifçiliyi ilə əlaqəli yazılmış məqalələrə nümunə olaraq N.Məhərrəmovun və M.Babaşovun "Qafqaz müsəlmanlarının atası", "Axund Mir Muhammed Kerim el-Bakuvinin hayatı ve eserleri", "Axund Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin həyat və yaradıcılığı", "XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı", M.Cəfərovun "İlk Quran təfsirçimiz" adlı məqalələrini göstərə bilərik.[51] Q.İlkinin əsərlərində[52] də əl-Bakuvi və digər islam maarifçiləri haqqında qiymətli məlumatlar vardır. M.Süleymanovun əsərlərində[53] əl-Bakuvinin xeyriyyəçi Azərbaycan sahibkarları ilə əlaqəsi haqqında da olduqca maraqlı materiallar var. Görkəmli şərqşünas Z.Bünyadovun "Qırmızı terror" əsərində[54] isə əl-Bakuvinin həyatının son dövrü, repressiyalara məruz qalması və qətl edilməsi haqqında qiymətli arxiv məlumatları vardır.

**Tədqiqatın mənbə bazası:** Dövrün islam maarifçiliyinin araşdırılması baxımından əsas qaynaq olaraq Mir Məhəmməd Kərim əl-

---

[50] Çalışkan İ. Türkçe'de ilk şiî tefsir // Cumhuriyet Üniversitesi İlahiyat Fakültesi Dergisi, 2001, V cilt, № 1, s.217-222.

[51] Məhərrəmov N., Babaşov M. Qafqaz müsəlmanlarının atası. "Ədəbiyyat" qəz.,1991, 8 fevral; Babaşov M. Axund Mir Muhammed Kerim el-Bakuvinin hayatı ve eserleri // Qafqaz Üniversitesi 1996-1997 haftalık seminerleri. Bakü, 1998, s.192-201; Babaşlı M. Axund Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin həyat və yaradıcılığı // Dövlət və Din. 2008, mart, № 1 (5), s.165-171;Yenə onun. XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı // Journal of Qafqaz University. 2003, № 12, s.221-238.

[52] İlkin Q. Bakının üç üləması. "Ədəbiyyat və İncəsənət" qəz., 1990, 24 avqust; Yenə onun. Bakı və bakılılar. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006, 384 s.

[53] Süleymanov M. Azərbaycan milyonçuları: Hacı Zeynalabdin Tağıyev. Bakı: Gənclik, 1996, 96 s.; Yenə onun. Azərbaycan milyonçuları: Musa Nağıyev. Bakı: Gənclik, 1994, 40 s.; Yenə onun. Oxuduqlarım, eşitdiklərim, gördüklərim. Bakı: Azərnəşr, 1987, 320 s.

[54] Bünyadov Z. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 331 s.

Bakuvinin üç cildlik “Kəşfül-həqayiq” əsərində islami maarifçilik mövzusu geniş və hərtərəfli təqdim edilib. Əl-Bakuvi ilə az və ya çox dərəcədə əlaqədə olan vəya onunla eyni dövrdə yaşamış ziyalıların əsərləri, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, H.Baykara, M.Məmmədzadə və başqa publisistlərin, Əbdüssəlam Axundzadə, Əbu Turab Axundzadə, Molla Ruhulla, Axund Yusif Talıbzadə, Axund Hacı Məhəmməd Həsən Mövlazadə Şəkəvi, Hacı Şeyx Həsən Mollazadə Gəncəvi kimi görkəmli maarifçi din xadimlərinin kitabları, moizələri və məqalələri mövzunun əsas qaynaqlarıdır. Tədqiqat zamanı “Əkinçi”, “Kaspi”, “Həyat”, “İrşad”, “İşıq”, “Füyuzat”, “Molla Nəsrəddin” və s. mətbuat orqanlarından da istifadə olunmuşdur. Mövzumuzla əlaqədar olaraq Çar Rusiyasının Azərbaycan və islam siyasətini qaynaqlar əsasında öyrənmək üçün çox cildli "Акты собранные Кавказскою Археографическою Коммиссиею”,[55] «Полное собрание законовъ Российской империи”[56] və «Полное собрание законовъ Российской империи”[57] kitabları çox qiymətlidir. Bu kitablarda çar hökumətinin islama və müsəlmanlara baxışı, Zaqafqaziyanın müsəlman ruhaniliyi haqqında verdiyi əmrlər, qanunlar, hökumətin müsəlman din xadimlərinə münasibəti öz əksini tapmışdır. Mövzu ilə əlaqədar olaraq Azərbaycan Respublikası Dövlət Tarix Arxivindəki fond materiallarından istifadə edilmişdir.[58] Çar Rusiyasının anti-islam siyasətində təklif və tövsiyələri ilə böyük rol oynayan xristian missioner-şərqşünaslarının – N.İ.İlminskinin, M.Miropiyevin, N.P.Ostroumovun məktub və əsərlərindən[59] və Dövlət Dumasının azərbaycanlı deputatlarının mövzu ilə

---

[55] Акты собранные Кавказскою Археографическою Коммиссиею (АКАК). Т. II (1802-1806). Тифлисъ, 1868, 1238 с.; Göst. əsər. T. VI, I часть, Тифлис, 1874, 491 с.; Т. VII, Тифлисъ, 1878, 994 с.; Т. IX, Тифлисъ, 1884, 1013 с.; Т. X, Тифлисъ, 1885, 938 с.

[56] Полное собрание законовъ Российской империи. Т. XLIV, частъ вторая. Книга штатовъ. Отделение III и IV. Санкт Петербургъ: Типография II отделения собственной его канцелярии, 1830, 1178 с.

[57] Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис: Издание Управления Кавказского Учебного Округа, 1900, 27-й выпуск, отдел II, с.198.

[58] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (AR DTA), fond 288, siy. 2, iş.55; f. 290, siy.1, iş. 2460; f. 290, siy.1, iş. 1399; f.290, siy.1, iş.1492; f. 291, siy. 2, iş. 10903.

[59] Ильминский Н.И. Избранные места из педагогических сочинений. Казань: Тип. Императорского Университета, 1892 г., 134 с.; Ильминский Н.И. О применении русского алфавита к инородческим языкам. Москва, 2011, 49 с.;

əlaqədar fikirlərinin yer aldığı Duma stenoqramlarından[60] da istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Mövcud elmi ədəbiyyatda indiyədək müxtəlif islam maarifçilərinin dini maarifçilik görüşləri tədqiq edilsə də, onların əksəriyyətinin orijinal əsərlərinə az yer verilmişdir. Dissertasiya işinin əsas elmi məqsədi də XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş azərbaycanlı islam maarifçilərinin yaradıcılığı əsasında dövrün islami maarifçilik və islahatçılıq hərəkatının mənzərəsini ortaya qoymaqdır. Bu məqsədlə bu vəzifələrin yerinə yetirilməsinə diqqət edilmişdir:

-Şimali Azərbaycanda islami maarifçilik və islahatçılıq hərəkatını dövrün mənbələri və tədqiqat əsərləri əsasında tədqiq etmək;

-Azərbaycanda islam maarifçiliyinin təşəkkül tapmasının ideya mənbələrini göstərmək;

-Azərbaycanda islam maarifçiliyinin mahiyyətini və xüsusi cəhətlərini təhlil etmək;

-Dövrün din xadimlərinin və digər ziyalıların mövzuya baxışını ortaya qoymaq;

-Çar Rusiyasının azərbaycanlılara yönəltdiyi mənəvi təzyiqlərini, islama olan təhdidkar mövqeyini göstərmək;

-İslama qarşı olan bəzi azərbaycanlı ziyalıların və xristian missionerlərin mövqeyini izah etmək;

-İslam maarifçilərinin cəmiyyət, insan, təhsil, qadın, hüquq, yardımlaşma kimi məsələlərə tolerant baxışını ortaya qoymaq;

-İslam maarifçilərinin cəhalətə, nadanlığa, islamı dərk etməyən müsəlmanlara, radikalizmə olan tənqidi fikirlərini təsbit və təhlil etmək;

---

Миропиев М.А. О положении русских инородцев. С.Петербургъ синодальная типография 1901, 515 с.; Религиозное и политическое значение хаджа или священного путешествия мухаммедан в Мекку для совершения религиозного празднества. Казань: Тип. Императорского Университета, 1881, 251 с.; Остроумов Н.П. Исламоведение Коран: Религиозно-законодательный кодекс мусульман. Ташкент, 1912, 160 с.; Мусульманские мактабы и русско-туземные школы в Туркестанском крае // Журналъ министерство народного просвещения, С-Петербургъ: Сенатская типография, 1906 февраль, Часть 1, с.113-167.

[60] Кавказские депутаты в III Государственной Думе. Баку: 1912, 238 с.; Кавказский запрос в Государственной Думе: Полныя речи всех ораторов по официальним стенограммам. Тифлис, 1909, 280 с.

-İslam maarifçilərinin xarici əsarətə, missionerlik kimi zərərli fəaliyyətlərə münasibətini ortaya qoymaq.

**Dissertasiya işinin metodoloji əsası:** Dissertasiyada müəllif tədqiq olunan problemlərlə bağlı XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda yaşamış islam maarifçilərinin elmi-fəlsəfi düşüncələrindən və onların gəldiyi nəticələrdən faydalanmışdır. Dissertasiyanın nəzəri əsaslarını XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda islam maarifçiliyinin genişlənməsində mühüm rol oynayan mütəfəkkirlərin cəmiyyət, insan, dil, milli-mənəvi dəyərlər, insan haqları, qadın azadlığı kimi məsələlərə baxışı təşkil edir. Tədqiqat zamanı analiz, sintez, sistemli və tarixi-müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiyanın elmi yeniliyi hər şeydən öncə mövzunun seçimindən, problemin qoyuluşundan, işin məqsəd və vəzifələrindən irəli gəlir. Elmi işin yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

-Dövrün görkəmli din xadimi və islahatçısı olan Mir Məhəmməd Kərim əl-Bakuvinin islami maarifçilik baxımından əvəzsiz bir əsəri olan "Kəşfül-həqayiq" əsəri orijinalından nümunələr verilməklə ilk dəfə olaraq Azərbaycan tarixşünaslığında dövriyyəyə gətirilmişdir;

-İlk dəfə olaraq Şimali Azərbaycanın bir çox islam maarifçisinin əsərləri və baxışları orijinaldan nümunələr verilməklə ortaya qoyulmuşdur;

-İslam maarifçilərinin vətənpərvərlik, millətsevərlik, dini, əxlaqi dəyərlər haqqındakı fikirləri ilə insan haqları və azadlığına dair baxışları arasındakı qarşılıqlı əlaqəsi təhli edilmişdir;

-Dini maarifçiliyin milli şüurun formalaşmasında və milli-dini hərəkatın təşəkkülündə yeri və rolu müəyyənləşdirilmiş, onun bu günümüzlə ahəngdar olan ideyaları qabarıq verilmişdir;

-İslami maarifçilik və islahatçılıq mövzusu ilk dəfə olaraq sistemli tədqiqat obyektinə çevrilmiş və kompleks şəkildə öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqat zamanı əldə edilən elmi nəticələr Şimali Azərbaycanın islam maarifçilərinin ictimai, fəlsəfi görüşlərinin obyektiv olaraq cəmiyyətə çatdırılması baxımından böyük nəzəri və praktiki əhəmiyyət daşıyır. Tədqiqat işinin əsas müddəa və nəticələrindən:

-İslam maarifçilərinin cəmiyyət və insan haqqındakı ideyalarının tədqiqi mövzusundakı gələcək tədqiqatlarda;

-İslam dünyagörüşünün geniş ictimaiyyətə çatdırılmasında;

-İctimai-fikir tariximizi, xüsusilə islam maarifçiliyi mövzusunun öyrənilməsində və tədqiqində;

-İslam maarifçiliyi mövzusunda əsərlərin yazılmasında;

- İslami maarifçilik mövzusunda metodik dərs vəsaiti kimi istifadədə;

-Şimali Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəlləri dövrü tarixinin araşdırılmasında, dövrün islamçılıq baxımdan tədqiqinə dair elmi-tədqiqat işlərinin yazılmasında;

-Ali məktəblərin müvafiq fakültələrində ixtisas kurslarının aparılmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası:** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycan tarixinin elmi ekspozisiyası" şöbəsində müzakirə edilmişdir. Tədqiqatın əsas müddəaları Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrdə əksini tapmışdır. Dissertasiyanın əsas mövzusu olan əl-Bakuvinin "Kəşfül-həqayiq" əsəri dissertant tərəfindən ərəb əlifbasından latın əlifbasına transliterasiya edilərək və sadələşdirilərək QMİ tərəfindən nəşr edilmişdir.[61]

**Dissertasiyanın quruluşu:** Dissertasiya girişdən, üç fəsildən, səkkiz yarımfəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"**Giriş**"də tədqiqat üçün seçilmiş mövzunun aktuallığı, problemin elmi əhəmiyyəti əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri göstərilir, problemə dair elmi ədəbiyyat nəzərdən keçirilir, mənbələr təhlil olunur, dissertasiya işinin elmi yeniliyi və praktiki əhəmiyyəti qeyd olunur.

Dissertasiyanın I fəsli "**Şimali Azərbaycanda müsəlman ruhaniliyi və din xadimlərinin yaradiciliğında islami maarifçilik və islahatçılıq mövzusu**" adlanır və üç yarımfəsildən ibarətdir.

"**Çar Rusiyasının Azərbaycan ruhaniliyinə baxışı**" adlı I yarımfəsildə XIX əsrin başlanğıcından etibarən Şimali Azərbaycandakı rus əsarətinin Azərbaycan xalqına vurduğu zərbə, mütərəqqi din xadimlərinə olan təzyiqlər, təhqirlər təsvir edilmiş, milli, dini maarifçiliyə olan əngəllər, çarizmin müsəlmanların milli, dini hisslərinə olan təhqiramiz münasibəti ortaya qoyulmuşdur. Çarizmin Təbətəbai kimi din xadimlərinin

[61] Bakuvi M.K. Üç cilddə. I cild. Kəşfül-həqayiq an nukətil-ayati vəd-dəqaiq. Baş məsləhətçi: Şeyxülislam A.H.Paşazadə. Transliterasiya: Ə.Fərhadov. Bakı: İpəkyolu nəşriyyatı, 2014, 552 s.; Göst. əsər. II cild. Bakı: İpəkyolu nəşriyyatı, 2014, 528 s.; III cild. Bakı: İpəkyolu nəşriyyatı, 2014, 694 s.

mənfəətpərəstliyindən necə məharətlə istifadə etdiyi,[62] şeyxülislam və müftiləri, digər din xadimlərini hansı yollarla özünə tabe etməyə çalışdığı tədqiqatda göstərilmişdir. Müsəlman din xadimləri içərisində islamın təməl prinsiplərinə zidd çıxaraq Rusiyanın işğalçılıq və assimilyasiya siyasətinə tərəfdar olanlar da olmuşdur. Bunlara nümunə olaraq müctəhid Təbətəbaini, müfti Hüseyn Qayıbovu nümunə göstərə bilərik.

Bu yarımfəsildə həmçinin çarizmin xristianlığı təşviq etməsi, N.İ.İlminski, M.Miropiyev, N.P.Ostroumov, V.Radlov kimi xristian missionerlərinin, şərqşünaslarının islama vurduğu zərbələr təsvir edilmişdir. Həmçinin C.Məmmədquluzadə, Ü.Hacıbəyli, Axund Yusif Talıbzadə, Molla Ruhulla və s. ziyalıların əsərləri əsasında bu missionerlərin iç üzü ifşa edilmişdir.

II yarımfəsil "**Cənubi Qafqazın rəhbər din xadimlərinin fəaliyyət və yaradıcılığında islami maarifçilik və islahatçılıq mövzusu**" adlanır. Bu dövrdə müsəlmanlar arasında dini savadsızlığın geniş yayılmasına baxmayaraq dövrün bir sıra din xadimləri, o cümlədən ali din xadimi olan şeyxülislamlar, müftilər islami maarifçilik sahəsində mühüm xidmətlər göstərmiş, islami həqiqətləri xalqa çatdırmaqda, islamı müdafiə etməkdə əvəzsiz rol oynamışdırlar. Bu yarımfəsildə müsəlmanların dini baxımdan maariflənməsində bu din xadimlərinin nə kimi əhəmiyyətli rol oynadığı göstərilmişdir.

Şeyxülislam Məhəmmədəli Hüseynzadə mütərəqqi din xadimi olub, çarizm əleyhinə üsyanlara qoşulan din xadimlərini cəzalandırmaqda laqeyd davranır, hökumətin göstərişlərinə də etinasız yanaşırdı. Məhz bu səbəblərdən hökumətin təzyiqlərinin nəticəsində şeyxülislam 1846-cə ildə istefa verməyə məcbur olmuş və onun müavini Fazil İrəvani yeni şeyxülislam təyin edilmişdi. F.İrəvani cahil din xadimlərinə qarşı mübarizə aparır, onların verdiyi mənasız fitvaları, mütərəqqi insanları kafir elan etmələrini tənqid edirdi. 1862-ci ildə F.İrəvaninin istefasından sonra onun tövsiyəsilə şeyxülislam seçilən Əhməd Hüseynzadə bir çox elm və mədəniyyət xadimləri ilə də dostluq etmiş, dar gündə onlara yardım əlini uzatmışdı. 1883-ci ildə Zaqafqaziya sünni müsəlmanları ruhani idarəsinin sədri, müfti təyin edilən H.Qayıbov (1830-1917) da qadınların islami baxımdan maariflənməsi sahəsində mühüm xidmətlər göstərir, "İşıq" qəzetində görkəmli müsəlman qadınları haqqında məqalələr yazırdı.

[62] Pakrəvan E. Abbas Mirzə və Azərbaycan. Farscadan çevirən: G.Gəncalp. Bakı: Qanun, 2007, 207 s., s.66-67, 71.

Şeyxülislam Əhməd Hüseynzadədən sonra 1885-ci ildə şeyxülislam vəzifəsinə seçilən Axund Mirzə Həsən Tahirzadə (1837-1893) də öz moizələrində xalqı daima maarifə səsləyirdi. XIX əsr-XX əsrin əvvəllərində yaşamış görkəmli maarifçi din xadimlərindən biri də Axund Əbdüssəlam Axundzadə (1843-1907) olmuşdur. Ə.Axundzadənin 1907-ci ildə vəfatından sonra şeyxülislam təyin edilən Mövlazadə Şəkəvinin (1853-1932) şübhəsiz ki, ən böyük xidməti Quranın azərbaycanca olan 2-ci təfsirini - "Kitabül-bəyan fi təfsirül-Qur`an" ("Quran təfsirinin bəyanı kitabı"-Ə.F) əsərini yazması olmuşdur. Axund Mövlazadədən sonra Zaqafqaziya şeyxülislamı olan Məhəmməd Pişnamazzadə (1853-1937) dünyəvi elmlərdən bixəbər olan din xadimlərini bisavad mirzə adlandırırdı. O dövrdə bölgədə və ətraf rayonlarda erməni quldurları tərəfindən edilən vəhşiliklərə cavab olaraq M.Pişnamazzadə azərbaycanlıları səfərbərliyə çağırır, onları özünümüdafiəyə təşviq edirdi. M.Pişnamazzadədən sonra şeyxülislam vəzifəsinə seçilən Axund Ağa Əlizadə (1870-1954) də Azərbaycanın görkəmli maarifçi din xadimlərindən biri olmuşdur.

"**Digər din xadimlərinin və sufi mütəfəkkirlərin fəaliyyət və yaradıcılığında islami maarifçilik və islahatçılıq hərəkatı**" adlı III yarımfəsildə İsmayıl Şirvani, Seyid Nigari, Əbu Turab Axundzadə, Molla Ruhulla, Axund Yusif Talıbzadə kimi mütərəqqi din xadimlərinin həyat və fəaliyyəti, islami maarifçilik düşüncələri, əl-Bakuvi ilə əlaqələri qeyd edilmişdir. Çarizmin azərbaycanlı din xadimlərinə olan təzyiqləri nəticəsində bir çox görkəmli ruhani, sufi və şeyxlər Azərbaycanı tərk etməyə məcbur olmuşdular. Bunlara nümunə olaraq XIX əsrin ən görkəmli Azərbaycan mütəfəkkirlərindən biri olan Mövlanə İsmayıl Siracəddin əl-Kürdəmiri əş-Şirvani (1782/83-1848) və Seyid Nigarini (1805-1885) göstərə bilərik.

"Əkinçi" qəzetinin nəşri dayandırıldıqdan sonra Azərbaycan mətbuatında böyük bir boşluq yarandı ki, bu boşluğu da 1879-cu ildə görkəmli din xadimi Hacı Səid Ünsizadə "Ziya" (1880-cı ilin dekabrından "Ziyayi-Qafqaziyyə") qəzeti ilə doldurmağa çalışdı. Qeyd edək ki, Ünsizadə qardaşları islamçılıq siyasətini yaydıqları üçün çarizmin təqibinə məruz qalmış və 1901-ci ildə Türkiyəyə sığınmışdılar. Görkəmli Azərbaycan mütəfəkkiri əl-Bakuvinin "Kəşfül-həqayiq" əsərinin yazılmasında öz tövsiyələrilə müəyyən rol oynayan din xadimlərindən olan Əbu Turab Axundzadə[63] (1817-1910) Azərbaycanın islami maarifçilik tarixində də mühüm rol oynamışdır. Bir digər görkəmli din xadimi Hacı

[63] İlkin Q. Bakı və bakılılar, s.201.

Şeyx Həsən Mollazadə Gəncəvi böyük ilahiyyatçı alim idi. Ona yaxın kitabın müəllifi olan Mollazadənin ən əhəmiyyətli əsəri dörd cildlik "Zübdətüt-təvarix"dir ("Tarixlərin xalisi" - Ə.F.). Bu əsər Azərbaycan tarixi baxımından da qiymətlidir. Dövrün görkəmli din xadimlərindən biri də Molla Ruhulla Məhəmmədzadə (1850-1912) idi. O, əl-Bakuvi ilə də yaxından əməkdaşlıq edirdi.[64] XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış maarifçi din xadimlərindən biri də Axund Yusif Talıbzadə (1877-1923) olmuşdur. O, bir çox qiymətli əsərlərin də müəllifidir.

II fəsil "**Əl-Bakuvinin həyat və yaradıcılığı, islami maarifçiliyə baxışı**" adlanır və iki yarımfəsildən ibarətdir.

"**Əl-Bakuvinin həyatı, ictimai fəaliyyəti və əsərləri**" adlanan I yarımfəsil XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanda islami maarifçilik hərəkatının əsas nümayəndələrindən biri olan Mir Məhəmməd Kərim əl-Bakuvinin həyatına, ictimai fəaliyyətinə və əsərlərinin tanıdılmasına həsr olunub. 1904-1918-ci illərdə Bakı qəzasının qazısı və Bakı quberniyası Şiə Məclisinin sədri olaraq çalışan əl-Bakuvi nəzəri maarifçilik işi ilə yanaşı ictimai sahələrdə də fəal maarifçilik işi görürdü.[65] Əl-Bakuvi xalqın dini hislərini istismar edənlərə qarşı barışmaz mübarizə aparırdı. Maarifçi bir ruha sahib olan, xalqı hər zaman elmə təşviq edən, xurafata qarşı mübarizə aparan əl-Bakuvinin fəaliyyəti dövrün mətbu orqanlarında öz əksini tapır və məmnunluqla qarşılanırdı.[66]

Əl-Bakuvi ilə yaxından dostluq, yoldaşlıq münasibətləri olan H.Z.Tağıyev onu tərcüməçilik fəaliyyətinə də təşviq edirdi. Əl-Bakuvinin ərəb yazıçısı Corci Zeydanın bəzi əsərlərini ərəb dilindən Azərbaycan dilinə tərcümə etməsinin bir səbəbi də bu olmuşdu.[67]

Əl-Bakuvi cahil bir cəmiyyətdə qız məktəbi açaraq onların təhsil almasını istəyən, lakin bu yolda qızların oxumasını küfr sayan xurafatçıların maneəsi ilə üzləşən H.Z.Tağıyevə də yardım etmişdi.[68] Əl-Bakuvi milli münaqişələrin yatırılmasında, sülh proseslərində də fəal iştirak edirdi.[69] 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını alqışlayan əl-Bakuvi bu dövrdə öz arzusu ilə rəsmi dini vəzifələrindən

---

[64] İlkin Q. Göst. əsər, s.201.
[65] İlkin Q. Göst. əsər, s.179; Məhərrəmov N., Babaşov M. Göst. məqalə.
[66] Hidayət məclisində mühüm bir məsələ. "İrşad" qəz., 1907, 26 yanvar.
[67] Süleymanov M. Oxuduqlarım, eşitdiklərim, gördüklərim, s.65.
[68] Süleymanov M. Azərbaycan milyonçuları: Hacı Zeynalabdin Tağıyev, s.12.
[69] Ağaoğlu Ə. Seçilmiş əsərləri. Tərtib edənlər: V.Quliyev, Ə.Mirəhmədov. Bakı: Şərq-Qərb, 2007, 392 s., s.346.

istefa vermiş, sərbəst tərcüməçilik fəaliyyəti ilə məşğul olmuşdu. Çox təəssüf ki, bolşevik işğalı nəticəsində əl-Bakuvi repressiyaya məruz qalmış və 1938-ci ildə güllələnmişdir.[70]

"**Əl-Bakuvinin "Kəşfül-həqayiq" əsərində islami maarifçilik və islahatçılıq mövzusu**" adlanan II yarımfəsildə müəllifin "Kəşfül-həqayiq" əsəri əsasında islami maarifçilik və islahatçılıq düşüncəsi təqdim edilmişdir. Əl-Bakuvinin dini-ideoloji fikirlərinin əsas izahı onun Quranın tərcümə və təfsirinə əsaslanan "Kəşfül-həqayiq" əsərində və qismən də digər əsərlərində ortaya qoyulmuşdur. Azərbaycan xalqının ərəbcəyə olan nabələdliyi və ərəbcə öyrənmənin mürəkkəbliyi şəraitində müsəlman xalqı və Quran arasındakı sədləri yıxmaq və Quranın doğru anlaşılması məqsədi[71] ilə ilk dəfə "Kəşfül-həqayiq" adlı azərbaycanca üç cildlik təfsir əsərini yazan əl-Bakuvi bu əsəri ilə Azərbaycan müsəlmanlarının dini maariflənməsi və xurafatlardan xilası üçün mədəni inqilab səviyyəsində bir fəaliyyətə imza atmışdır. Müəllif bu təfsiri yazarkən əsasən sünni və qismən də şiə təfsirlərindən istifadə etmiş, yeri gəldikcə öz şəxsi mülahizələrini də ortaya qoymaqdan çəkinməmişdir. Əl-Bakuvi xalqın cəhalət içində qalmasının səbəbini, öz dövrünün bir çox problemlərinin həll edilməməsinin günahını nadan din xadimlərində görür, onları öz şəxsi mənfəətləri naminə Quran ayələrini olduğu kimi xalqa izah etməməkdə, mövhumata qarşı mübarizə aparmamaqda günahlandırırdı.

III fəsil "**İctimai xadimlərin və sənət adamlarının yaradıcılığında islami maarifçilik və islahatçılıq mövzusu**" adlanır və üç yarımfəsildən ibarətdir.

"**Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında islama tənqidi baxışlar**" adlı I yarımfəsildə bəzi ziyalıların islama mənfi və subyektiv baxışı və həmçinin əl-Bakuvinin ateist ziyalılara, xristianlığı mənimsəyənlərə mənfi münasibəti ortaya qoyulmuş, bu kimi ziyalıların islama qarşı mübarizə aparmaqla əslində özləri də bilmədən çar Rusiyasının müsəlmanları assimilyasiya siyasətinə yardımçı olduqları qeyd olunmuşdur.[72] Məsələn, M.F.Axundzadə "Kəmalüddövlə məktubları"nda, digər məktub və əsərlərində islamı əsarət və cahillik mənbəyi olaraq göstərib ondan qurtulmağı təklif edirdi. İslamı fanatizm sayan və bu səbəbdən xristianlığı qəbul və təbliğ edən ziyalılardan biri də M.Kazımbəy olmuşdur. M.Şahtaxtlı isə ruhaniləri əqli inkişafın, düşüncə azadlığının

---

[70] Bünyadov Z. Qırmızı terror, s.278.
[71] Əl-Bakuvi. Göst. əsər. Müqəddimə. I cild.
[72] Əl-Bakuvi. Göst. əsər. I cild, s.92, 240; Yenə orada, III c., 1906, 959 s., s.824.

düşməni kimi təqdim edirdi. C.Məmmədquluzadə də öz məqalə və felyotonlarında mütərəqqi din xadimlərini tənqid edir,[73] şəriəti insanlığa zərərli hesab edirdi. Bu səbəbdən bir çox din xadimi, o cümlədən qazı əl-Bakuvi C.Məmmədquluzadə kimi ziyalıları küfrlə ittiham etmiş,[74] ateistləşməyi və xristianlaşmağı tənqid etmişdir.[75]

"**Azərbaycanlı şair və yazıçıların yaradıcılığında islami maarifçilik və islahatçılıq mövzusu**" adlı II yarımfəsildə əl-Bakuvinin şair və ədiblərə münasibəti, həmçinin dövrün ədib və şairlərin yaradıcılığındakı islami maarifçilik motivləri ortaya qoyuldu. Əl-Bakuvi "Kəşfül-həqayiq" əsərində islami mövzuda şeirlər yazan H.Şirazi, S.Şirazi, C.Rumi, N.Gəncəvi kimi bir çox klassik şairlərdən də bəhs etmiş, onların islami maarifçilikdə oynadığı rolu göstərmiş, Quran və hədislərə əsaslanaraq elmi, təhsili, əxlaqı və kamilləşməyi təşviq edən şeirlərdən nümunələr vermişdir.[76] Dövrün sadəcə din xadimləri deyil, dinə sadiq olan şair və yazıçıları da həm islamın təbliğində, həmçinin xalqın dini şüurunun canlı tutulmasında, din tarixinin, din fəlsəfəsinin öyrədilməsində mühüm rol oynamışlardır. Bu ziyalılara nümunə olaraq, A.A.Bakıxanovu, S.Ə.Şirvanini, M.Ə.Sabiri, M.Hadini, R.Əfəndiyevi və digərlərini göstərə bilərik. A.A.Bakıxanov öz əsərlərində şəriət elmlərinin öyrənilməsini təbliğ etmiş, Q.Zakirin mənzum əsərlərində islam dininə, imamlara böyük ehtiram göstərilərək islama zidd əməllər edən nadan ruhanilər, dərvişlər, qazılar ifşa edilmişdi. S.Ə.Şirvaninin yaradıcılığında da cahil və nadan din xadimləri satirik dillə ifşa olunurdu. Dahi Azərbaycan şairi M.Ə.Sabirin (1862-1911) yaradıcılığında da islami maarifçilik mövzusu əsas yerlərdən birini tutur. Hətta əl-Bakuvi özü də onun dindar olduğunu qeyd etmişdir.[77] H.Cavidin (1882-1941) yaradıcılığı da islami maarifçilik baxımından zəngindir. Ü.Hacıbəyli din xadimlərini yetişdirəcək ali dini təhsil

---

[73] Məmmədquluzadə C. Zina // Molla Nəsrəddin, 1911, № 25; Məmmədov M. C.Məmmədquluzadənin din və mövhumat əleyhinə mübarizəsi. Bakı: AzSSR EA nəşriyyatı, 1962, 72 s., s.15.

[74] Əl-Bakuvi. Göst. əsər. I cild. s.92, 240; Yenə orada, III cild, s.824.

[75] Məmmədquluzadə C. Qafqaz şeyxül-islamına iki dənə açıq məktub // Molla Nəsrəddin, 1907, № 22; Hikmətli sözlər // Molla Nəsrəddin. 1906, №24.

[76] Əl-Bakuvi. Göst. əsər. I cild. s.176, 236, 469, 683-684; Yenə orada. II c., s.104-105; Yenə orada. Müqəddimə. III cild.

[77] Əhmədov B. Adsız məktublara cavab. "Günəş" qəz., 1910, 5 noyabr; Yenə onun. Qırmızı möhürlü vərəqeyi-səryə sahiblərinə. "Səda" qəz., 1910, 22 mart; Balaxanaların Balaxanı məktəbi barədə ictimaələri. "Günəş" qəz., 1910, 5 noyabr.

müəssisələrinin Azərbaycanda olmamasını tənqid edir, belə bir müəssisənin cahil xalqın maariflənməsində nə qədər mühüm rol oynayacağını göstərirdi. A.Səhhət də öz əsərlərində islam dünyasının keçmiş şanlı günlərini qeyd edir, o əzəmətli dövrlərin geri qalmasının günahını cahil və nadan müsəlmanlarda görürdü. A.Şaiq də öz yaradıcılığında dini xurafata qarşı mübarizə aparmışdır. Böyük Azərbaycan yazıçısı və mütəfəkkiri Y.V.Çəmənzəminli də öz yaradıcılığında ali dini məktəblərin açılmasını vacib sayır, müsəlmanları cahil və nadan mollalardan uzaq olmağa, maarifə çağırırdı. Məhəmməd Hadinin yaradıcılığında isə islam dünyasındakı məzhəb ixtilafları qınanır, müsəlmanlar mənəvi tərbiyəyə və Quranı dərk etməyə dəvət olunurdu. Bu dövr Azərbaycanın görkəmli islam maarifçilərindən biri də Rəşid bəy Əfəndiyevdir. Ə.Cavadın və C.Cabbarlının əsərlərində isə türk ordusunun cihad fəaliyyəti və Rusiyanın anti-islam siyasəti təsvir edilmişdir.

III yarımfəsil "**Azərbaycan publisistlərinin yaradıcılığında islami maarifçilik və islahatçılıq mövzusu**" adlanır. Bu yarımfəsildə H.Zərdabi, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşov, X.Əlibəyova, M.Ə.Rəsulzadə, C.Hacıbəyli kimi ziyalıların publisistik fəaliyyətindən bəhs olunub. Bu publisistlərin əksəriyyəti mütərəqqi din xadimləri ilə birlikdə müxtəlif ictimai və xeyriyyə təşkilatlarında birlikdə fəaliyyət göstərmiş, müsəlmanların maariflənməsi yolunda çalışmışdırlar. Məsələn, Ə.Topçubaşov, Ə.Hüseynzadə və Ə.Ağayev 1906-cı ildə məzhəblərarası yaxınlaşmanı təmin etmək üçün Bakıda yaradılmış xüsusi komissiyada əl-Bakuvi ilə birlikdə fəaliyyət göstərmişdirlər.[78] Onların yazılarında əl-Bakuviyə aid müxtəlif məlumatlara da rast gəlmək olur.

XIX əsr Azərbaycan mətbuatının inkişafında və islami maarifçiliyin təbliğində H.Zərdabi və "Əkinçi" qəzeti mühüm rol oynamışdır. Ünsizadə qardaşlarından olan C.Ünsizadənin redaktoru olduğu "Kəşkül"də isə din pərdəsi altında aparılan mövhumatçılıq, cəhalət yayan ruhanilər ciddi tənqidə məruz qalırdı. Bu dövrdə görkəmli islamşünas olan Ə.Ağaoğlu xüsusi nüfuza malik idi. O, milli, dini problemlərin səbəbini təqlidçilikdə görür və "Quran"ı zamanın şərtlərinə görə yenidən təfsir etmənin vacibliyini göstərməyə çalışırdı. Ə.Ağaoğlunun əsərlərində dövrün Bakı qazısı əl-Bakuvinin də adı hörmətlə çəkilir.[79] Ə.Ağaoğlu ilə birlikdə fəaliyyət göstərən ziyalılardan biri də Ə.Hüseynzadə olmuşdur. "Həyat"

---

[78] Əlimərdan bəy Topçubaşov Azərbaycan mətbuatı səhifələrində. Toplayanı və tərtib edəni: H.Həsənov. Bakı: Elm, 2005, 156 s., s.138.
[79] Ağaoğlu Ə. Göst. əsər, s.346.

qəzeti və “Füyuzat” jurnalı Ə.Hüseynzadənin bir mütəfəkkir kimi Azərbaycanda tanınmasında böyük rol oynamışdır. Onun yazılarında əl-Bakuvinin adı xüsusi ehtiramla çəkilir.[80] Əl-Bakuvi də Ə.Hüseynzadənin yaradıcılığına və şəxsinə böyük hörmət bəsləmişdi.[81] Bu dövrdə milli ziyalılar içində islamçı “İşıq” qəzetinin redaktoru X.Əlibəyova (1884-1961) və onun yoldaşı, qəzetin naşiri, hüquqşünas M.Əlibəyov (1872-1943) da xüsusi yer tutur. Dövrün ziyalıları içində Ə.Topçubaşov (1862-1934) da xüsusi əhəmiyyətə malikdir. “Kaspi” qəzetinin redaktoru olan Ə.Topçubaşov qəzetin səhifələrində çarizmin müsəlmanlara qarşı apardığı ayrı-seçkilik siyasətini qınayır, Qafqazda ali ruhani məktəbin açılmasını, sünni və şiə məktəblərinin birləşdirilməsi məsələsini qaldırırdı. Bakı qazısı əl-Bakuvi də onun ictimai-siyasi fəaliyyətini alqışlamışdı.[82] Böyük Azərbaycan mütəfəkkiri, ictimai-siyasi xadim M.Ə.Rəsulzadənin publisistikasında da islami maarifçilik mövzusu əsas yerlərdən birini tutur. Ərəb yazıçısı C.Zeydanın qazı əl-Bakuvi tərəfindən “Kərbəla yanğısı” adı ilə tərcümə edilən “Ğadətu-Kərbəla” romanının əsasında “Yezid ibn Müaviyə” pyesinin tamaşaya qoyulmasını alqışlayan M.Ə.Rəsulzadə islamı siyasi əməllərə alət edilməsini qınayır, lakin dinə dərin hörmət və inam bəsləyirdi.[83] H.Minasazovun və C.Hacıbəylinin publisistikasında da islami maarifçilik əsas yerlərdən birini tutur. C.Hacıbəyli cəmiyyətdə hökm sürən cəhalətin, mövhumatın bir səbəbini də dini savadsızlıqda görür və müsəlmanları maarifləndirmək niyyəti ilə çoxsaylı məqalələr çap etdirirdi. Azərbaycan ziyalıları içində islamı mövhumat və xurafatlardan təmizləməyin vacibliyini qeyd edən ziyalılara nümunə olaraq F. Köçərli və T. Bayraməlibəyovu da göstərmək olar.

Dissertasiyanın “**Nəticə**” hissəsində tədqiqata yekun vurulmuş və əldə edilmiş mühüm nəticələr qeyd edilmişdir. Habelə, tədqiqatın müasir dövrdəki əhəmiyyətinə və roluna diqqət yetirilmişdir.

---

[80] Hüseynzadə Ə. Seçilmiş əsərləri / Transliterasiya, tərtib, şərh və izahlar: O.Bayramlı. Bakı: Çaşıoğlu, 2007, 640 s., s.194.

[81] Babaşlı M. XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı, s.234.

[82] Əlimərdan bəy Topçubaşov Azərbaycan mətbuatı səhifələrində, s.166-167.

[83] Rəsulzadə M.Ə. Yezid ibn Müaviyə. “İqbal” qəz., 1913, 23 dekabr.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1.Əhməd Ağaoğlunun yaradıcılığında dini maarifçilik məsələləri // Milli Azərbaycan Tarixi Muzeyi-2011. Bakı: "Elm", 2011, 356 s., s.146-163.

2.Mir Məhəmməd Kərim Mircəfər əl-Bakuvinin yaradıcılığında maarifçilik ünsürləri //Gənc alimlərin əsərləri, №4, Bakı, 2011, s.206-211.

3.XX əsrin əvvəllərində bəzi islamçı Azərbaycan ziyalılarının yaradıcılığında qadın və təhsil məsələsi // Müsəlman Şərqində ilk dünyəvi qız məktəbinin yaradılmasının 110 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun tezisləri. Bakı, 6-7.X.2011. Bakı: "Ziya", 2011, 32 s., s.10.

4.Milli Azərbaycan Tarixi Muzeyi kitabxanasının fondlarındakı bəzi ərəb qrafikalı əsərlərimiz haqqında // "Muzeylərin müasir durumu və inkişaf perspektivləri". Beynəlxalq elmi konfransın materialları. 29.VI.2011-30.VI.2011. Bakı: "Ziya", 2011, 104 s., s.42-43.

5.İslamda modernizm və dini islahatçılıq tarixindən // "Müasir şərqşünaslığın aktual problemləri" beynəlxalq elmi konfransın materialları. 1-2 iyun 2011. Bakı: AMEA Şərqşünaslıq İnstitutu, 2011, 314 s., s.69-71.

6.Əhməd Ağaoğlu və dini maarifçilik // BDU İlahiyyat Fakültəsinin Elmi məcmuəsi, №16, dekabr, Bakı: 2011, s.63-80.

7."İşıq" qəzetində islami maarifçilik mövzusu // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, №.1, Bakı: "Elm", 2012, s.213-231.

8.XX əsrin əvvəllərində bəzi Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında qadın və təhsil problemi // Pedaqoji Universitet Xəbərləri, №2, Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi, Bakı: ADPU, 2012, s.129-134.

9.Гаджи Зейналабдин Тагиев и из истории просвещения // Азербайджан и азербайджанцы, №1-2. Bakı: 2012, с.173-181.

10. Bəzi əski əlifbalı əsərlərimiz haqqında // Gənc alimlərin əsərləri, №5, Bakı: 2012, s.235-242.

11.Из истории модернизма и реформаторства в исламе // Гiлея, Выпуск 56 (№1), Киев: 2012, с.207-211.

12.Ислам и реформизм // Азербайджан и азербайджанцы, №3-4. Baku, 2012, с.107-112.

13.XX əsrin əvvəllərində bəzi islamçı Azərbaycan ziyalılarının yaradıcılığında qadın və təhsil məsələsi // Müsəlman Şərqində ilk dünyəvi

qız məktəbinin yaradılmasının 110 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Simpoziumun məruzələri. Bakı: “Ziya”, 2012, 166 s., s.57-64.

14.Из истории религиозного реформизма в исламе // “Исламская цивилизация и современный мир” Международная научно-практическая конференция (г. Махачкала, 13-14 октября 2011 г). Махачкала: Издательство ДГУ, 2012, 329 с, с.107-111.

15.Mirməhəmməd Kərim Mircəfər əl-Bakuvi və maarifçilik // Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası). Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2012, №2, s.175-181.

16.Ərəb qrafikası ilə yazılmış bəzi əsərlər haqqında (Mir Məhəmməd Kərim Mircəfər əl-Bakuvinin əsərləri əsasında) // Milli Azərbaycan Tarixi Muzeyi-2012, Bakı: “Elm”, 2012, 336 s., s.80-93.

17.Əbu Hamid əl-Qəzali və Mir Məhəmməd Kərim Mircəfər əl-Bakuvidə cəmiyyət və onun islahı məsələsi // “Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu” II Respublika elmi konfransının materialları. Bakı: “Ziya”, 2012, 164 s., s.80-85.

18.Hacı Zeynalabdin Tağıyevin islami maarifçilikdə rolu // Pedaqoji Universitet Xəbərləri, №4, Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi, Bakı: ADPU, 2012, s.74-83.

19.XX əsrin əvvəllərində Türkiyədə islam maarifçiliyi hərəkatından // Akademik Vasim Məmmədəliyevin 70 illik yubileyinə həsr olunmuş “Şərqşünaslığın aktual problemləri” mövzusunda Respublika elmi konfransının materialları, 14-15 noyabr 2012, Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2012, 444 s., s.422-424.

20.”Füyuzat” jurnalında islami maarifçiliyə baxış // XIX əsr – XX əsrin birinci yarısı Azərbaycan maarifçiliyi və maarifçiləri /Məqalələr toplusu/. Bakı: “Ziya”, 2013, 144 s., s.86-106.

21.“Aləmi-nisvan”da doğan bir şəfəq / Nəsib bəy Yusifbəyli – milli istiqlal və dövlətçilik mücahidi. Bakı: “Ziya”, 2013, 216 s., s.16-28.

22.Molla Ruhulla Məhəmmədzadənin yaradıcılığında islami maarifçilik mövzusu // Milli Azərbaycan Tarixi Muzeyi-2013, Bakı: “Ziya”, 2013, 368 s., s.56-64.

23.”Nəsrəddin şahın Avropa səyahətnaməsi” əsərinə baxış // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş “Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu” III Respublika elmi konfransının materialları, Bakı, 18-19 IV.2013. Bakı: “Ziya”, 2013, 272 s., s.94-99.

24.Mir Məhəmməd Kərim Mircəfər əl-Bakuvinin həyatı və maarifçilik fəaliyyətinə dair. Life and enlightenment work of Mir Muhammad Karim Mirjafar al-Bakuvi // Miras, №7, Bakı: 2013, s.76-85.

25.Babilik hərəkatında Zərrintac-Tahirə xanımın rolu // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, № 1, Bakı: "Elm", 2013, s.3-24.

26. Mir Məhəmməd Kərim əl-Bakuvidə dini, təsəvvüfi və ədəbi rəmzlər // Kafkasya'dan Anadolu'ya Kültür Köprülerimiz Uluslararası Seyyid Yahya Şirvani ve Halvetilik Sempozyumu Bildiri Kitabı. Eskişehir, 2013, 864 s., s.493-509.

27.Birinci Dünya müharibəsi illərində Azərbaycan-Osmanlı münasibətlərinə dair // Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Elmi məqalələr toplusu. Elmi redaktoru: F.Cabbarov. Bakı: "Ziya", 2014, 208 s., s.161-178.

28.XX. asrın başlarında Azerbaycan`da islami düşünce, eğitim ve islahat anlayışı // Belleten (Türk Tarih Kurumu), 281, Cilt: LXXVIII-Sayı: 281-Yıl: 2014, Nisan, s. 273-286.

29.XIX-XX əsrin əvvəlləri Şimali Azərbaycanda xristian missionerliyi tarixindən // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, №1, 2014, s. 49-58.

30.Əhli-Həqq və ya Əli-ilahilikdə Əli məfhumu (Rusiya şərqşünaslarının əsərləri əsasında) // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, № 2, Bakı: "Elm", 2015, s.3-10.

31.Mir Məhəmməd Kərim əl-Bakuvi və "Kəşfül-həqayiq" // Dövlət və din, №-1, Bakı, 2015, s.87-96.

32.M.Ə.Rəsulzadənin yaradıcılığında dini-siyasi məsələlər // Füyuzat, № 1 (81), Bakı, 2015, s.12-17.

33.Mir Həmzə Nigari və dini maarifçilik // Dövlət və Din, № 6 (35), Bakı, 2015, s.87-94.

34.XX əsrin əvvəllərində islam maarifçiliyi // Füyuzat, № 4 (84), Bakı, 2015, s.48-54.

35.Mir Məhəmməd Kərim əl-Bakuvinin "Kəşfül-həqayiq" əsərində ədəbi, dini mövzular və rəmzi yanaşmalar // Journal of Qafqaz University-History, law and political sciences, 2015. Volume 3, Number 1, p.59-72.

36.Heydər Hüseynovun həyat və yaradıcılığından (Milli Azərbaycan Tarixi Muzeyinin materiallari əsasinda) // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, № 3, Bakı: "Elm", 2015, s.64-81.

37.XX əsrin əvvəllərində tarix elminə baxış (Corci Zeydanın və Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin əsərləri əsasında) // Azərbaycanın ilk peşəkar arxeoloq və muzeyşünası Davud bəy Şərifovun

anadan olmasının 130 illiyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" V Respublika elmi konfransının materialları. Bakı: "Elm və təhsil", 2015, 320 s., s.123-133.

**Фархадов Али**

# ДВИЖЕНИЕ ИСЛАМСКОГО ПРОСВЕЩЕНИЯ И РЕФОРМАТОРСТВА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ. (НА ОСНОВАНИИ ТРУДА МИР МУХАММЕДА КЕРИМА МИР ДЖАФАРА АЛЬ-БАКУВИ «КАШФУЛЬ-ХАГАИГ» («ОТКРЫТИЕ ИСТИНЫ»)

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. В введении указаны актуальность, хронологические рамки, источники, степень изученности, цели и задачи, теоретические и методологические основы, научно-практическое значение, научная новизна, практическая ценность, апробация и структура работы.

I глава, называющаяся «Исламское просвещение и исламское мышление в творчестве мусульманского духовенства и религиозных деятелей Северного Азербайджана», состоит из трех параграфов. Здесь нашли отражение антиисламская деятельность царской России в Северном Азербайджане, жизнь и размышления исламских просветителей, их связи с аль-Бакуви.

II глава, называющаяся «Жизнь и творчество аль-Бакуви, его взгляд на исламское просвещение», состоит из двух параграфов. Здесь представлены жизнь, общественная деятельность аль-Бакуви, его произведения и проанализированы его просветительские и реформаторские идеи мыслителя, в основном на основе труда «Кашфул-хагаиг» («Открытие истины»).

III глава, называющаяся «Исламское просвещение и реформаторство в творчестве общественных деятелей и представителей сферы искусства», состоит из трех параграфов. В данном разделе нашли отражение мысли видных общественных деятелей и творческих личностей об исламе и отношение к ним аль-Бакуви.

В заключении говорится о значении изучения и пропаганды творчества этих представителей интеллигенции.

**Farkhadov Ali**

# MOVEMENT OF ISLAMIC ENLIGHTENMENT AND REFORMISM IN NORTHERN AZERBAIJAN IN LATE 19TH AND EARLY 20TH CENTURIES (ON THE BASE OF MOHAMMED MIR MIR JAFAR AL - BAKUVI'S WORK "KASHFUL-KHAQAIQ" ("THE DISCOVERY OF TRUTH")

## SUMMARY

The dissertation consists of an introduction, three chapters, a conclusion and a review of literature. In the introduction are stated urgency, chronological framework, the sources, scope of study, goals and objectives, theoretical and methodological bases, scientific and practical importance, scientific novelty, practical value, approbation and structure of the work.

The first chapter, titled "Islamic enlightenment and Islamic thought in Muslim clergy's works and religious figures of North Azerbaijan", consists of three paragraphs.

The dissertation deals with the anti-Islamic activities of Tsarist Russia in Northern Azerbaijan, including Islamic religious enlighteners' life and thought, their relation to al-Bakuvi.

The second chapter which is titled "al-Bakuvi's life and activity, his view on Islamic enlightenment", consists of two paragraphs. There is described al-Bakuvi's life and social activity as well as his works and analyzed thinker's educational and reformist ideas, mainly on the basis of work "Kashful-khaqaiq" ("The Discovery of truth.").

The third chapter, titled "Islamic enlightenment and reformism in the work of public figures and representatives in the sphere of art", consists of three paragraphs. This chapter reflects the thoughts of prominent public figures and creative person on Islam, including al-Bakuvi's attitude to them.

The conclusion deals with the importance of study and propaganda activity of these representatives of intelligentsia.

Formatı: 60x84 1/16. F.ç.v. 2.

Tiraj 100 nüsxə.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМ. А.А. БАКИХАНОВА**

***На правах рукописи***

**АЛИ РИЗВАН оглы ФАРХАДОВ**

# ДВИЖЕНИЕ ИСЛАМСКОГО ПРОСВЕЩЕНИЯ И РЕФОРМАТОРСТВА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ. (НА ОСНОВАНИИ ТРУДА МИР МУХАММЕДА КЕРИМА МИРДЖАФАРА АЛЬ-БАКУВИ «КАШФУЛЬ-ХАГАИГ» («ОТКРЫТИЕ ИСТИНЫ»)

**Специализация: 5503.02 – Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**Баку – 2016**